

**Oktay ABDULLA**

## GƏLSİN SƏSİMİZ

Gəncəmə sevgilər, hörmət görürəm,
Ürəyimdə ruhum rahatlıq tapır.
Vəsfinə şeirdən çələng hörürəm,
Qayəsi, mənası könlümə yatır.

Çaylartək içimdən arzu çağlayır,
Bu günü, sabahı uğurlu səhər!
Bir şair şəninə dastan bağlayır,
Heyranlıq içində ucalır şəhər!

Aydınlığa bizi aparan yollar,
Bir anın içində gözəlləşirik.
Rahatlıq bilməyir qönçə xəyallar,
Günəştək, ay kimi təzələşirik!

Var istək, arzundan doyunca barın,
Qəlbində nəyin var söylədim, əhsən!
Nəfəsi duyulur yazın, baharın,
Alqışlar deyirəm, eşq olsun, Vətən!

Bir az da ucadan gəlsin səsimiz,
Bütövlük, birlikdi, yumruqtək olaq.
Acılar görməsin bircə kəsimiz,
Bir tarix yaradıb tarixdə qalaq!

## GƏNCƏM

Ey çinarlı Gəncəm, ey gözəl diyar!
Həmişə nazını çəkir ixtiyar.
Qəlbimdə çox sənə məhəbbətim var,
Sanıram özümü burda bəxtiyar.

Nizami Gəncəvi təb aldı səndən,
Parlayan günəşsən, nuruna əhsən.
Şəninə xoş sözlər gəlir qəlbimdən,
Dünyanın diqqəti, söhbəti sənsən.

Azman çinarların baş-başa verib,
Dayanıb önümdə çox məğrur, mətin.
Ömrünü həm yaza, həm qışa verib,
Düşmüşəm sehrinə bu əzəmətin.

Nə qədər igidlər çəkmiş qəhrini,
Nə qədər inci tək sözüm var sənə.
Nə qədər düşmənin yarmış zəhrini,
Nə qədər dastanın yazılacaq yenə.

Sən əsgər andına, sözümə, inan,
Qələbə bizimdir, bizim olacaq.
Qanında boğulacaq "böyük hayestan",
Bu dünya durduqca sözüm olacaq.

Adınla oynadı neçə fərmandar,
Ey Gəncəm, adınla yaşadın ancaq.
Nə yaxşı tanrımın mərhəməti var,
Ən gözəl şeirim sənin olacaq.

Gözümün nurusan, doğma şəhərim,
Bu döyünən nəbzim, ürəyim sənsən.
Sən doğan günəşim, nurlu səhərim,
Gecələr gözümdə mürgüləyirsən.

## SALAM

Düşübdü güzarım bu gün dağlara,
A şır-şır bulaqlar, a yerlər, salam.
Üşüdüb həsrətin o qədər məni,
Mahallar, obalar, a ellər, salam.

Axşama az qalır, günəş fağırdı,
Qaş-gözlə kölgələr məni çağırdı.
Bitməyən dastanlar uzun nağıldı,
Keçmişim, sabahım, ay illər, salam.

Güneydə çiçəyin, qüzeydə qarın,
Titrəsin buludlar, ələsin narın.
Bir ayrı dadı var, yazın-baharın,
Oylağım, məskənim, a çöllər, salam.

Yaxşını, yamandan necə seçməyim,
Diz çökdüm önündə çəmən, çiçəyim.
Dünyada sevdiyim, sənsən göyçəyim,
Bənövşəm, nərgizim, a güllər, salam.

Çəkilmir başından dumanı, çəni,
Hər qaya, hər daşı söylədir məni.
Bir baxış, min sual göynədir məni,
A bərli-bəhərli dərələr, salam.

Ah dolur, boşalır gözlərim hərdən,
Çağlayır çayların düşmür bəhərdən.
Boylandım sehrinə qərinələrdən,
A köhnə kişilər, a bəylər, salam.

Duyğusal şairlər sözə can atmış,
Söz də var inci tək ruhuma yatmış.
Tanrı kainatı gözəl yaratmış,
Qoy baxım doyunca, a göylər, salam.

ədalət.-2018.-17 yanvar.-S.7.